

# İlham Əliyev Qoşulmama

## Dövlət başçıları Azərbaycanda çox sərt bəyanatlar verdilər

**Dünən Bakıda Qoşulmama Hərəkatına (QH) üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işə başlayıb. Zirvə görüşünü Venesuela Bolivar Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri Nikolas Maduro açıb. İlk olaraq ötən müddət ərzində dünyasını dəyişmiş QH-nın dövlət və hökumət başçılarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

N.Maduro bildirib ki, rəsmi Karakasın Azərbaycanla artıq sıx, mehriban münasibətləri var: "Bütün nümayəndə heyətlərinə göstərilən qonaqpərvərliyin şahidiyik. Biz bu təşkilata 2016-cı ildən 2019-cu ilədək sədrlik etdik. Ötən müddət ərzində təşkilatın daha da güclənməsi üçün bütün səylərimizi səfərbər etdik. Biz yenidən toplaşaq çoxtərəflilik əsasında fikirlərimizi bildirmək imkanı əldə etmişik.

Bəzi aqressiv və zərər vuran hərəkətləri pisləyiirk. Elə etməliyik ki, bunun qarşısı alınsın. Biz görürük ki, Venesuelada da sülh pozulur, dövlət çevrilişinə cəhd edirlər. Yüz illər ərzində dövlətimizi qurmuşuq. İradəmiz əyilməzdir, gələcəyə ümidlərə baxırıq. Hətta bu çətin, təklənmiş şəraitdə iradəmizi qırmaq mümkün deyil. Bəzi qüvvələr var ki, xalqın iradəsini sual altına almağa çalışır. Qoşulmama Hərəkatına üzv dövlətlər bu cəhdlərin qarşısını almalıdır. Biz həmrəy olmalıyıq ki, səsimiz diqqətdən kənarda qalmasın. Cəhd göstərəcəyik ki, öz rifahımızı əldən verməyək. Xarici müdaxilələrin qarşısını almalı, birgə müqavimət göstərməliyik. Sülh və dövlətlər arasında əyilməz münasibət olmalıdır ".

N.Maduro QH-na üzv ölkələr arasında həmrəyliyin, sivilizasiyalar arası yaxınlaşmanın təmin edilməsinə çalışdıqlarını bildirib: "İstərdik ki, Qoşulmama Hərəkatına üzv dövlətlər arasında daha sıx həmrəylik olsun və bu həmrəylik daha da güclənsin. Biz görürük ki, bununla bağlı addımlar atılır. Bu fürsətdən istifadə edərək arzu edirik ki, Azərbaycan bu həmrəyliyin daha qabarıq nümayiş etdirilməsi üçün çalışsın. Birbirimizlə daha tez-tez görüşməliyik. Bunun əsasında qarşımıza qoyduğumuz məqsədlərə daha tez nail ola bilərik.

Biz QH-yə üzv dövlətlərə bizə göstərilən dəstəyə görə təşəkkür edirik. Biz mürəkkəb çağırışlarla üz-üzəyik. İlk olaraq BMT-nin nizamnaməsindən irəli gələn tələblərə riayət olunmalıdır. Xarici müdaxilələrin qarşısı alınmalıdır. Bizim diplomatiyamız sülhə və əmin-amanlığa xidmət edir. Böhran artıq sistematik fenomen kimi üzə çıxır. Dövlətlərə qarşı çirkin qarayaxma əməliyyatları tükənmir. Bu qüvvələr geosiyasi dominant mövqedə olmamalıdırlar. BMT üzvlərinin 2/3-i burada təmsil olunur. Bizim dövlətlərin zəngin ehtiyatları var. Amma imperialist dövlətlər bizdən əl çəkmir. Öz hərəkatımızı gücləndirməliyik. Hərəkat vasitəsilə xalqların adət-ənənələrini qorumalıyıq. Hansısa dövlətin polis rolu oynamasına imkan verməməliyik. Hansısa hegemon maraqlarından azad olan dünyada yaşamalıyıq. Biz konkret mövqedən çıxış etməli və nəticəyə nail olmalıyıq. Karib, Sakit okean regionlarından olan qardaşlarımızı terror hücumlarından qorumalıyıq. İnsan hüquqlarına gəlincə, ikili standartlar müşahidə edirik".

Venesuela Prezidenti BMT İnsan Hüquqları Şurasına keçiriləcək seçkidə ölkəsinə dəstək istəyib: "Biz ölkələrimizi qlobal imperialist güclərdən qorumalıyıq. Milyonlarla insanı dünyada ən güclülərdən, hegemon yanaşmadan xilas etməliyik. Qoşulmama Hərəkatı ilə ayağa qalxmalıyıq. Artıq vaxt yetişib. İmperialist qüvvələrə qarşı bu mübarizəmiz müqəddəs mübarizədir. Heç zaman onların qarşısında diz çökməyəcəyik".

### Pakistan Prezidenti dünyaya səsləndi...

"Bu gün dünyada baş verən toqquşmalar, o cümlədən hər gün artan terrorçuluq çox mürəkkəb vəziyyətin yaranmasına gətirib çıxarıb. Biz gücdən istifadə hallarının, o cümlədən qeyri-sabitliyin şahidiyik. Beynəlxalq təşkilatların qərarlarına məhəl qoyulmur".

Bunu Qoşulmama Hərəkatının sammitində çıxışı zamanı Pakistan prezidenti Arif Alvi bildirib.

O qeyd edib ki, iqlim dəyişkliyi, irqçilik, xüsusilə islamafobiya baş alıb gedir:

"Zirvə görüşü çərçivəsində biz Bandunq prinsiplərini qeyd etdik. Bizim təşkilat çərçivəsində tədbirlər planı olmalıdır. Hərəkatın üzvləri BMT üzvlərinin 2/3 hissəsi, dünya əhalisinin 50 faizidir. Bizim ümumi irsimiz var. Bu irs BMT nizamnaməsində əks olunanları tətbiq etməyə imkan verir.

Pakistan birmənalı olaraq işğala yox deyir, onu pisləyir. Xalqların azadlığı naminə terrorçuluğa qarşı mübarizə aparılamasını təşviq edir. Üzv dövlətlər hər cür işğaldan əziyyət çəkirlər. Kəşmir xalqı on illiklər ərzində xarici əsarət altındadır. Kəşmirin işğalı ilə bağlı onun incəliklərini açıqlayan qərar var. Bu qərar BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanır. Hazırda orada qeyri-qanuni hərəkətlər edilir və orada yaşayan əhali illər ərzində əziyyət çəkir. Həmin regionda yaşayan xalqın öz müqəddəratını təyin etmək hüquq var. Bu hüquq təmin edilməlidir. Bu gün Kəşmirdə terrorçuluq baş alıb gedir. BMT hüquq mövqeyindən çıxış edərək ölçülər götürməldir".

Arif Alvi qeyd edib ki, Pakistan Kəşmirdə təhlükəsizliyin bərqərar olması üçün çalışır: "Biz Kəşmir xalqının çətinliklərini qeyd edirik. BMT Təhlükəsizlik Şurası indiyədək bu istiqamətdə 11 qətnamə qəbul edib. Orada yaşayan xalq ən böyuk terror hadisələri ilə üzləşir. Etnik mənsubiyyətindən, dinindən asılı olmayaraq Pakistan hesab edir ki, hər bir dövlət etnik xalqın hüququnu qorumalıdır. Pakistan bu baxımdan beynəlxalq əməkdaşlığın gücləndirilməsinə çağırış edir. Bu məsələ siyasiləşdirilməli, passiv olaraq kənardan müşahidə edilməli deyil. Kənar qüvvələr oranı işğal altında saxlayır. Həmçinin, Əl-Qaidə, İŞİD kimi ünsürlərə qarşı addımlar atılıb. Beynəlxalq ictimaiyyət bunun öhdəsindən gələ bildiyi kimi Kəşmirdəki ünsürlərin də öhdəsindən gələ bilər. Biz bu ünsürlərin beynəlxalq hüquq qarşısında cavab verməsinə nail olunmasına çağırırıq".

İqlim dəyişikliyi ilə bağlı danışan Arif Alvi qeyd edib ki, Pakistan Himalay dağlarında buzlaqların əriməsinin qarşısının alınması ilə bağlı təkliflər irəli sürüb və sunamilərin qarşısının alınması üçün fondun yaradılması istiqamətində çalışır. Pakistan Prezidenti iqlim dəyişikliyi ilə mübarizə üçün hər il 3 trilyon dollar vəsaitin ayrılmalı olduğunu vurğulayıb.

### Ruhani: "Çalışmalıyıq ki, Amerikanın..."

"Qoşulmama Hərəkatının zirvə görüşünün qonaqlarını salamlayır, cənab İlham Əliyevin səylərini xüsusilə vurğulamaq istəyirəm. Bu möhtəşəm sammitə və nümayiş etdirdiyi qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Cənab Maduroya da öz sədrliyi dövründə nümayiş etdirdiyi səylərə görə minnətdaram".

Bunu Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının sammitində çıxışı zamanı İran Prezidenti Həsən Ruhani bildirib.

O qeyd edib ki, ABŞ hazırda birqütblü dünya yaratmağa çalışır, digər tərəfdə isə Qoşulmama Hərəkatı belə güclərə sinə gərməyə çalışır və çoxtərəfliliyi öz iş prinsipi elan edib:

"Xüsusən də iqtisadi sahədə inkişaf etməkdə olan ölkələrin güclərinin artması, suveren dövlətlərin əməkdaşlığının güclənməsi, müstəqil beynəlxalq təşkilat və qurumların səylərini birləşdirməsi ABŞ-ın hegemonluğuna qarşı dirənişi nümayiş etdirir. Özünün hərbi gücünü artıraraq ABŞ müxtəlif istiqamətlərdə münaqişələrə təhrik edir, bunun ucbatından yüz minlərlə insan həyatını itirir, milyardlarla dollar silahlara xərclənir beləliklə də ekstremizm və terror artır. Təcavüzkarın səylərinin uğursuzluğa düçar olmasına baxmayaraq biz çalışmalıyıq ki, ABŞ-ın hegemonluğunun qarşsını alaq. Elə bir dövrdəyik ki, artıq müstəqil oyunçular aydın şəkildə öz mövqeyini bildirə bilir. ABŞ-ın bu siyasəti on minlərlə ABŞ əsgərinin ölümünə, milyardlarla ABŞ dollarının sərf edilməsinə səbəb olub. Dünyada ABŞ-a olan etimadın kritik şəkildə azalması yeni siyasətçilərin meydana gəlməsinə səbəb olub ki, bu insanlar da ABŞ-ın hegemon və birtərəf siyasətinə qarşı çıxır. Qoşulmama sammiti çox mürəkkəb bir vaxtda keçirilir. Dünyanın müxtəlif ölkələrində problemlər artmaqdadır, milli suverenliklər pozulur, ölkələrin silah yarışı qızışır, müharibə və münaqişələrin artması beynəlxalq hüquq və öhdəlikləri pozur, dünya ölkələrinin siyasətinə müdaxilə edilir. Bu gün ABŞ iqtisadi üsullarla öz siyasi məqsədlərinə nail olmaq istəyir və bu siyasətini yekəxana şəkildə həyhata keçirir. Bu iqtisadi terrora bərabər bir şeydir. Belə bir mürəkkəb şəraitdə Qoşulmama Hərəkatı dünyanın üçdə iksini təşkil edir. Bu təşkilatın bütün üzvləri qarşıdakı problemlərin aradan qaldırılmasında səfərbər olmalı, ekstremizm və terrora qarşı bir cəbhə olaraq çıxış etməlidir. İran BMT-nin 68-ci sessiyası zamanı terrora qarşı bir sıra təkliflərlə çıxış edib. Nəticədə 2013-2015-ci illərdə Baş Assambleya müvafiq qətnamələr qəbul etdi. Müxtəlif müstəqil

